Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Elm və həyat nakamı Aydın Məmmədov

**Aydın Məmmədovun 75 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Elm və həyat nakamı Aydın Məmmədov:** Aydın Məmmədovun 75 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 11 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Yer üzünə milyardlarla insan gəlib-gedib və dünyanın bu insan karvanı yenə öz gedişindədir. Hərəyə bir ömür bəxş edilib. Həyatın mənası yaşanan illərin sayında deyil, onun necə yaşanmasındadır. Uzun, qısa və s. fərq həmin ömrü necə başa vurmaqdır. Ömür var ki, günü əsrə bərabər belə ömür cild-cild kitaba sığmaz. Mənalı ömür sürən insanlardan biri də istedadlı qələm sahibi Aydın Məmmədovdur. O, özünün dəst-xətti, yaradıcılıq üslubu, elmi istiqaməti, şəxsi mövqeyi, nüfuzu ilə seçilən biridir. O, bütöv bir şəxsiyyətdir. Aydın Məmmədov mənalı ömür sürən insanlar sırasında olan tənqidçi, dilçi, siyasətçi, türkoloqdur. Aydın Məmmədov nəinki təkcə doğma sahəsindəki, habelə bir sıra "yad obyektlər" də professional bir şəxs, rasional bir aydındır.

Ziyalı qələm sahibi tənqidçi, dilçi, siyasətçi, türkoloq Aydın Məmmədovun 75 illik yubileyi münasibətilə yazılmış bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Elm və həyat nakamı Aydın Məmmədov"* adlanır və Aydın Məmmədovun nakam həyatından bəhs edir. II hissədə isə onun yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılğı

Aydın Məmmədov 1944-cü il 16 yanvarda Şəkinin Kiş kəndində anadan olmuşdur. Qonşu Oxud kənd orta məktəbini qızıl medalla bitirmişdir. Bütün ömrünü doğma Azərbaycanın tərəqqisinə, xalqının elmi, mədəni və siyasi dirçəlişinə həsr etmişdir. Orta məktəbdə müəllim fəaliyyətinə qoşulan Aydın Məmmədov elmi işçi kimi böyüdü, ictimai xadim kimi ərsəyə çatdı, görkəmli siyasət adamı kimi həyatdan getdi. Azərbaycan türklərinin bu torpaqda eramızdan çox öncə yaşaması fikrini elmi gerçəkliyə çevirməyi bacaran alim Aydın Məmmədov istər "Sovetskaya türkologiya" jurnalının redaktor müavini, istərsə də Bədii Tərcümə Mərkəzinin rəhbəri kimi SSRİ-nin və bütövlükdə bütün dünya türklərinin bir-birini daha yaxından tanıması, onların doğmalaşması üçün ölçüyəgəlməz işlər görmüşdür.

Ömrünün təxminən son onilliyini bütünlüklə ictimai-siyasi hadisələrə həsr edən A.Məmmədov 1988-ci ilin fevralından başlayan Azərbaycan Xalq hərəkatının ön sıralarında ilk günlərdən dayanmışdır. Onu həmişə tətil edən fəhlələrin, yerli ağalara etiraz edən kəndlilərin, tələbələrin, ziyalıların içərisində, özü də ən narahat, ən ağrılı anlarda görmək mümkün idi. Ayıq siyasətçi və ardıcıl demokrat olan Aydın bəyin hadisələrə öz şəxsi münasibəti və onları öz şəxsi yozum üslubu vardı.

Güclü məntiqə malik, alovlu natiq Aydın Məmmədov on minlərcə insanı arxasınca aparmağı bacarırdı. Xalqın sevgisini qazanmış A.Məmmədov millət vəkili seçilmişdi. Bu vəzifədə o, milli birlik yaratmaq, azadlıq və demokratiya uğrunda hərəkatımızı düz yolla aparmaq üçün ciddi işlər görürdü.

Respublika Ali Sovetinin millətlərarası münasibətlər üzrə daimi komissiyasının sədri idi. Qarabağda Xalq Yardımı Komitəsinin sədr müavini olmuşdur. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə seçilmişdir.

1991-ci il aprel ayının 19-da avtomobil qəzasında faciəli şəkildə həlak olmuşdur. Aydın Məmmədov öz doğma Kiş kəndində dəfn olunmuşdur.

İstedadlı şəxsiyyət Aydın Məmmədovun anadan olmasının 75 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, icmal, ədəbi-bədii gecə keçirilə bilər. Görkəmli dilçi, tənqidçini sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. "Əsərlərindən boylanan şəxsiyyət", Elin, xalqın insanı – Aydın Məmmədov", "Üzü dan üzünə bənzəyən türkcü", "Unudulmayan – Aydın Məmmədov", "Xalq ruhunda köklənən dilçi", "Şəxsiyyət ömrünün anları", "Ömrü xatirəyə çevrilən insan", "Mübariz insan – Aydın Məmmədov" və s.




Böyük insan, türkoloq Aydın Məmmədov yaradıcılığını oxuculara tanıtmaq və qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də *"Son gileyin kölgəsi"* adlı **kitab müzakirəsidir.** Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə ziyalı dilçinin bir çox kitabı ilə yanaşı, sözügedən kitabı təqdim edilir. Şagirdlər kitabı oxuyurlar və iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. İştirakçılar və qonaqlar kitabxananın oxu zalına toplaşırlar. Kitabxanaçı hər kəsi salamladıqdan sonra dilçi-siyasətçi və sözügedən kitab haqqında maraqlı söhbətə başlayır.

*Kitabxanaçı:* Dilçi, tənqidçi Aydın Məmmədovun "Son giley" kitabı kitabsevərlər üçün bir töhfədir. Yazarın digər sanballı

kitablarında olduğu kimi bu kitabında da maraqlı və yeni faktlarla zəngin məlumatlar var. Hər bir oxucu buradan özünə lazım olan məlumatları əldə edə bilər. “Azadlıq” qəzeti readaksiyası, “Turan” məlumat-nəşriyyat müəssisəsi və “Azərbaycan” nəşriyyatı bu kitabı Aydın Məmmədovun əziz xatirəsinə ithaf edir. Kitab dalğalar, burulğanlar arasında çarpışa-çarpışa yaşamalı olduğumuz dövrləri 1988-ci il və sonrasını, dövlət olaraq müstəqillik əldə etdiyimiz dövrə qədər zamanı əhatə edir.

*Kitabxanaçının dəyərli məlumatından sonra məktəblilər Aydın Məmmədovun kitabda yer alan dəyərli fikirlərini söyləyirlər.*

### ***Sitatlar***

1.Əgər sən məni bir dəfə aldadırsansa, axmaqlıq eləyirsən. Yox əgər bacarıb bir də aldadırsansa, deməli, axmaqlığı mən eləyirəm.

2. Xalq istəyir ki, sevdiyi şəxslər həmişə gözünün qabağında olsun.

3. Mənim bəxtim nağıllarda olduğu kimi, həmişə üçdən gətirib. Həyatımın da üç mərhələsi olub. Axırıncısı ən uğurlusu, 1988-ci il xalq hərakatı ilə bir vaxtda başlanıb.

*Tədbirin sonunda məktəblilər Xalq şairi Sabir Rüstəmxanlının məhrum dilçi, tənqidçi Aydın Məmmədova ithaf etdiyi “Aydın Məmmədovun dəfn günündə” adlı şeiri söyləyirlər.*

Yarıldı yerin köksü-əbədiyyət qapısı,
Qəbiristanlıq yolları dolub-daşdı adamla.
Ağ kəfənə çiləndi ağ buludun göz yaşı
Baharın ilk yağışı...
cəmi beş-altı damla!
Söndü allah ocağı-bir ürək yarı yolda,
Daha ona nə fərqi -ya alovlan, ya yanma?
Göz yaşları sel olsun bu zaman ümmanında-

Udulub gedəcəkdir...
cəmi beş-altı damla.
Deyilməmiş sözümüz, yazılmamış yazımız,
Allahın sir-boğçası-daşa dönən ilhamla.
Zamana qarışacaq!
Qazancımız nə imiş?-
Vaxt tapıb dediyimiz...
cəmi beş-altı damla.
Meydanlar, çayxanalar-sözün bülöv daşları,
Dostların işığına uçduğumuz axşamlar...
Hərə vəhşi dərdini salıb ürək qəfəsə,
Sevinci dil ucunda-
cəmi beş-altı damla.
Yaşıla çalan gözlər, gizli qəm burulğanı,
Ölümün o üzündən yenə bizi salamlar!
Deyirlər ki, millətimiz göyərəcək içindən
Suyunu Tanrı versə-
cəmi beş-altı damla.

Ziyalı şəxsiyyət Aydın Məmmədovun həyatı və gördüyü təqdirəlayiq işləri oxuculara tanıtmaq və onları bu haqda bilgiləndirmək məqsədilə kitabxanada keçirilən tədbirlərdən biri də *"Alimdir gözümdə ən əziz insan"* adlı **"oxucularla söhbət"** adlanır. Tədbirdə Azərbaycanın görkəmli ziyalıları – tarixçilər, ədəbiyyatşünaslar, tənqidçi və siyasətçilər və eləcə də Aydın Məmmədovun dostları, məsləkdaşları iştirak edə bilər. Tədbir kitabxanaçının fikirləri ilə başlayır. Akademik haqqında dəyərli fikirlər hər kəs tərəfindən rəğbətlə qarşılanır. Tədbir iştirakçıları içərisində Aydın Məmmədovun yaxın dostu və müasiri ziyalı insan Tofiq Məlikli söz alaraq Aydın Məmmədovla bağlı xatirələrini dilə gətirir: "Moskvada oxuduğumuz illərdə biz Aydınla ayrılmaz dost olmuşduq. Bir yerdə işləyər, bir yerdə yeyər-içər, bir yerdə əylənərdik. Əlimizdəki pulumuzu-paramızı

da bir yerdə xərcləyərdik. Nə gizlədim, elə aylar olurdu ki, ikimiz də təqaüdümüzü aldıqdan sonra 15-20 gün "padşahlar" kimi yaşayar, sonralar da "kəmərləri" əməllicə sıxmalı olardıq. Arada-sırada göndərdiyimiz yazıların qonorarları da, nə hikmətsə, həmişə çətin vaxtlarımızda hayımıza çatardı. Burada Aydının atası Mirsaleh kişinin, mənim anamın da fədakarlığını unutmaq olmaz.

Aydın olduqca səmimi, sədaqətli, mehriban, hər şəkili kimi məzəli lətifələri bitib-tükənməyən bir insan idi. Aspirantlar axşamlar bir araya gələr, gördüyümüz işlərimizdən, siyasi vəziyyətdən, vətənlə bağlı eşitdiklərimizdən söhbət açardıq. Onu da deyim ki, o illər Moskvada Azərbaycandan gələn çox sayda aspirant təhsil alırdı. Aydın olduqca istedadlı bir dilçi idi. O, dissertasiya yazmaq üçün asan mövzu yerinə tamamilə yeni, aktual və orijinal – "Türk dillərində samitlər: anlaut və mövzu yerinə kombinatorika" mövzusunu seçmişdi.

1988-ci ildə "Kitabi Dədə Qorqud" a həsr olunmuş ilk sovet-türk kollokviumunun Bakıda uğurla keçirilməsində də Aydının rolu böyük olmuşdu. Tez-tez gələ bilmədiyim üçün Bakıdakı bir çox təşkilatı məsələlərin həllinə mənə çox kömək etmişdi.

1980-cı illərin axırlarında Aydın həyatının ən aktiv dövrünü yaşamışdı. Faciəyə qədərki son üç ildə Aydın jurnala rəhbərlik etməklə bərabər, Tərcümə Mərkəzinin müdiri, Azərbaycan Ali Sovetinin deputatı, Milli həakatın liderlərindən biri, alovlu televiziya tribunu kimi fəaliyyət göstərmiş və gördükləri işlərlə də Azərbaycanın ədəbi və siyasi həyatında, yeni ictimai şüurun formalaşmasında önəmli rol oynamışdır. Aydının 47 yaşında, parlaq bir çağında avtomobil qəzasında ani şəkildə ölməsi yalnız yaxınları, dostları üçün deyil, bütün cəmiyyətimiz üçün bir itki idi".

Aydın Məmmədov bütün ömrünü doğma Azərbaycanın tərəqqisinə, xalqının elmi-mədəni, ictimai-siyasi dirilişinə həsr edib, getdi.

Mənim yolum, mənim taleyim,
Səhvlər, tərəddüdlər, ümidlər dolu,
Seçdiyim o enişli – yoxuşlu yollar,
Üzülmədən tez-tez xatırlanır o günlər...

Bu dünyaya gələrkən biz acılı-sevincli, uğurlu-uğursuz, rahat-əngəlli bir həyat yolu keçirik. Nəhayət, on ikiyə beş dəqiqə qalanda, yəni uzun ömür yolunun sonuna yaxınlaşanda, yaşadıqlarımızı, böyük bir masa üzərinə töküb, özümüz-özümüzə hesab veririk. Nələri etdik, nələri edə bilmədik, kimlərlə yol yoldaşı olduq, kimləri itirdik, kimləri yaşaya bildikmi? sualına cavab verməyə çalışırıq. Milli hərakatın liderlərindən biri, gördüyü işlərlə ölkənin ədəbi və ictimai-siyasi həyatında, ellik şüurun formalaşmasında önəmli rol oynadığının canlı şahidi olan Aydın Məmmədovun adı unudulmaz insanlar siyahısında daim yaşayacaqdır.

# Ədəbiyyat siyahısı

*Əsərləri*

**Məmmədov A.** Son giley : Aydın Məmmədovun əziz xatirəsinə ithaf edilmişdir. - Bakı : Azadlıq, 1991. - 96 s. - kiril qrafikası ilə.

***Haqqında***

**Məlikli T.** Ömür yolum, taleyim : ikinci hissə : Ver əlini göz yaşlarına inanmayan Moskva // Azərbaycan. – 2017. - № 9. – S.... ; 2018. - **№ 10**. - S. 59-85.

**Əhmədalılar T.** Elm və həyat nakamı : görkəmli dilçi, türkoloq, tənqidçi, siyasətçi Aydın Məmmədov // Mədəniyyət. - 2015. - 16 yanvar. - **№ 4**. - S. 13.

**Məlahət.** Yazıçılar Birliyində : Aydın Məmmədov - 70 // Ədəbiyyat qəzeti. - 2014. - 17 yanvar. - **№ 2**. - S. 8.

**Nəcəfzadə Q.** Şəkillər. Yeddinci şəkil : Yaşamaq lazımdır sabaha qədər : Aydın Məmmədov haqqında // Azərbaycan. - 2015. - **№ 8**. - S. 158-160.

**Rüstəmxanlı S.** Aydın Məmmədovun dəfn günündə : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 217-218.

# Elm və həyat nakamı Aydın Məmmədov

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 01
Çapa imzalanmışdır: 07.01.2019
Tirajı:100
Pulsuz